vin nitqləri həmişə geniş auditoriyanın rəğbətini qazanmışdır. Onun həm sadə və zəhmətkeş insanlarla görüşləri, həm də tanınmış incəsənət və mədəniyyət xadimləri ilə söhbətləri bizə belə düşünməyə imkan verir ki, Heydər Əliyev bir neçə mühüm şərti heç vaxt unutmurdu: natiqlik və incəsənət növləri dərin ağlın, istedadın bəhrəsidir, xüsusi yaradıcılıq sahələridir, xalqın bədii təfəkkürü, həyat və məişət tərzi, ictimai-siyasi quruluşu ilə bağlıdır. Onu hər bir xalq özünəməxsus şəkildə inkişaf etdirir və qiymətləndirir. Xalqın həyat tərzindən, təfəkküründən doğan kolorit – özünəməxsusluq natiqlikdə, incəsənət növlərində bəzən qabarıq, bəzən də üstüörtülü formada nəzərə çarpır (4, s.8).

Heydər Əliyev belə bir fikri həmişə vurğulamışdır ki, hər bir xalq öz dili ilə yaranır. Ancaq dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti sayəsində mümkün olur. «Haydar Aliyev: Devlet kuruculuğu ve dil politikası» adlı fundamental əsərində proffessor Nizami Xudiyev dahi şəxsiyyətin nitq mədəniyyəti və natiqlik məharətindən bəhs edərək yazır ki, Azərbaycanın ictimai-siyasi fikir tarixində böyük mövqeyi olan Heydər Əliyevin müdrik kəlamlarının təhlili belə bir qənaətə gəlməyə əsas verir:

1. Heydər Əliyev xalqa, onun yaradıcı gücünə, tarixi roluna yüksək qiymət verir;

2. O, şəxsiyyətin ictimai - mənəvi keyfiyyətini xalqına göstərdiyi xidmətin səviyyəsi iəl müəyyən edir;

3. Mənəvi zənginliyi hər şeydən üstün sayır;

4. Tarixin, həyat təcrübəsinin böyük əhəmiyyətə malik olduğuna inanır;

5. Azadlıq və istiqlaliyyəti hər bir xalqın, hər bir insanın mənəvi sərvəti hesab edir;

6. Sülh, ədalət və mənəiv saflığı cəmiyyətin həyatının əsas atributları sayır;

7. Ana dilini yüksək qiymətləndirir və s. (5, s.173-174).

Professor Nizami Xudiyevin belə bir səriştəli təhlilindən də aydın göründüyü kimi, Heydər Əliyevin bir natiq kimi məharəti ilə yanaşı, onun söylədiyi fikirlər ictimai-siyasi, mənəvi həyatın ən müxtəlif sahələrinə aid olub Azərbaycan ictimai təfəkkürünün zənginləşməsində böyük rol oynayır.

***Bu fikirlərin hər biri atalar sözü gücündədir, böyük təfəkkür və böyük həyat təcrübəsinin məhsuludur. Məhz bu cəhətlərin nəzərə alınması onun natiqlik məharətinin günü-gündən daha şöhrət tapmasına səbəb olmuşdur. Əlbəttə ki, burada diqqətimizdən yayınmış digər amillər də hökmən analiz edilməli və mənimsənilməlidir. Bütün bu nadir keyfiyyətləri özündə cəmləşdirmiş Heydər Əliyevin natiqlik təcrübəsi, onun nitq mədəniyyətimizin tarixinə bəxş etdiyi bu zəngin irs ciddi öyrənilməli və təbliğ edilməlidir.***

**Ədəbiyyat**


*1. Axundov Ağamusa. Dil və mədəniyyət. Bakı, Yazıçı, 1992.*
*2. Cəfərov Nizami. Azərbaycan; dil, ədəbiyyat və mədəniyyət. Bakı, «BUN», 2001.*
*3. Əhmədov Şövqi. Mühazirəçilik məharəti, natiqlik sənəti. Bakı, «Gənclik», 1985.*
*4. Əliyev Kamil. Natiklik sənəti. Bakı, Azərnəşr, 1994.*
*5. Hudiyev Nizami. Haydar Aliyev: Devlet kuruculuğu və dil palitikası. Bakı, 2005.*
*6. Xudiyev Nizami. Heydər Əliyev və Azərbaycan dili. Bakı, «Təhsil», 1997.*
*7. Nitq mədəniyyəti məsələləri (məqalələr toplusu). Bakı, «Elm», 1988.*
*8. Rəcəbov Əbülfəz. Dil, şüur, cəmiyyət, tarix. Bakı. Azərnəşr, 1993.*
*9.Səhnə danışığının məntiqi (metodik göstəriş), işləyəni Ə.Dadaşov.Bakı. ADİİ-nin nəşri, 1986.*
*10. Общее языкование (формы существования, функции, история языка). Москва, 1970.*
*11. Цицерон. Три трактака об ораторском искусстве, Москва, 1972.*



**ADMİU-nun kulturologiya fakültəsi tərəfindən təqdim edilib - 16.01.2007.**
**Rəyçi: Kulturologiya elmləri doktoru İ.Huseynov.**


**Heydar Aliyevs oratorical skill as the criterion of our oratorical culture**

**Summary**


In this arcticle the essence oratoru and oratorical culture problems are commented. Necessity of learning oratorical experience of the famous social an political leader and cultural figure Heydar Aliyev is grounded. His oratorical skill is presented as the most valuable model for oratorical culture of Azerbaijan.